**Vüqar Qəhrəman oğlu Tağıyev**

**UOT:334.012:334.722:334.021; JEL:L26;L53;P13.**

# Müasir dövrdə sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətləri və prioritetləri

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətlərinin və prioritetlərinin araşdırılmasıdır. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük ölçüdə quruculuq işləri həyata keçirilir və bu proseslərdə sahibkarların rolu mühüm əhəmiyyət kəsb edir. Regional inkişaf baxımından sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsinin vacibliyi əsaslandırılır. Qeyri-neft sektorunun inkişafında sahibkarlıq subyeklərinin üzərinə düşən vəzifələr və prioritetlər baxılmışdır. Yaxın perspektivdə sahibkarlıq fəaliyyətinin inkişafı konteksində işğaldan azad olunmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə dair tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası – baxılan problemlər üzrə dair müasir dövrdə mövcud vəziyyətdən yanaşmaqla, təhlil və sintez, müqayisə metodlarından, eyni zamanda sahibkarlıq fəaliyyətində hazırkı mexanizmlərin və strateji yanaşmaların təkmilləşdirilməsinə dair nəzəri-metodoloji baxışlar, həmin problemlərə dair alim və tədqiqatçıların əsərlərindəki müddəalardan ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – əldə olunmuş elmi-praktiki nəticələrdən Azərbaycanda sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi üzrə yeni proqramların və təkmilləşdirmə tədbirlərinin hazırlanmasında istifadə edilə bilər. Tədqiqatın nəticələri – yaxın perspektivdə işğaldan azad olunmuş ərazilərin potensialı da nəzərə alınmaqla, Azərbaycanda sahibkarlıq fəaliyyətinin daha səmərəli və məhsuldar mexanizmlərinin hazırlanması və tətbiqi ilə əlaqəlidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda verilən materiallar ölkəmizdə sahibkarlıq fəaliyyətinin mövcud vəziyyətini təsəvvür etməyə imkan verir və buna görə də originallıq şübhə doğurmur. Başlıca elmi yenilik sahibkarlıq fəaliyyətinə müasir prizmalardan və çağırışlardan, başlıcası işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi prioritetlərindən yanaşmaqla, ölkədə sahibkarlıq fəaliyyətinin əsas mexanizmlərinin təkmilləşdirilməsi prioritetlərinə yeni yanaşmaların vacibliyinin əsaslandırılmasıdır. Eyni zamanda, sahibkarlığın inkişafı ilə bağlı qlobal çağırışları özündə əks etdirən daha təsirli və məhsuldar fəaliyyət mexanizmlərinin işlənməsinin vacibliyi diqqət mərkəzinə çatdırılmışdır. Bu göstərilən məsələlər üzrə obyektiv reallıqlardan yanaşmaqla, müvafiq təkliflər hazırlanmış və tövsiyyələr verilmişdir.*

***Açar sözləri:*** *sahibkarlıq fəaliyyəti, işğaldan azad olunmuş ərazilər, Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu, sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətləri, sahibkarlığın inkişaf perspektivləri, sahibkarlığın inkişaf problemləri.*

## Giriş

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və dövrün tələblərinə uyğun olaraq təşkil edilməsi, zəruri addımların atılması dövlətin iqtisadi siyasətinin tərkib hissələrindən biri kimi baxılır. Sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi son nəticədə öz müsbət effektini verir, məşğulluğun gücləndirilməsində, əhalinin gəlirlərinin artırılmasında və iqtisadiyyatın artım mənbələrinin formalaşdırılmasaında önəmli rol oynayır. Məsələn, aparıcı dünya ölkələrində sahibkaqlıq fəaliyyətinin dəstəklənməsi üçün çoxlu sayda mexanizmlər işlənilib və tətbiq olunub. Əsas dəstək formaları kimi güzəştli kreditlərin verilməsi, investisiya mühitinin yaxşılaşdırılması, vergi güzəştlərinin müəyyənləşdirilməsi və sahibkarlıq inkişaf zonaların yaradılması praktikası geniş yayılmışdır. Bundan əlavə, sahibkarlıq fəaliyyətinin modelləşdirilməsi və zəruri maliyyə mexanizmləri ilə təmin edilməsi xüsusi diqqət



©Vüqar Qəhrəman oğlu Tağıyev Azərbaycan Dövlət Neft və Sənaye Unversiteti, doktorant. E-mail:vtaqiyev@mail.ru
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mərkəzində saxlanılmalıdır. Belə ki, iqtisadi funksiyaları ilə yanaşı sahibkarlıq subyektləri həm də sosial funksiyaları yerinə yetirirlər və xüsusilə regionların inkişafında böyük əhəmiyyət kəsb edirlər [1, s.94]. Eyni zamanda, sahibkarlığın inkişafı ilə prioritet istiqamətlərin optimal olaraq müəyyənləşdirilməsi və ölkənin iqtisadi iunkişaf proseslərində nəzərə alınması vacib məsələlər kimi xarakterizə olunur. Sahibkarlığın inkişafı üçün görülən tədbirlər ölkənin sosial-iqtisadi inkişafının intensivləşdirilməsində stimullaşdırıcı şərtlərdəndir [2, s.7 1]. Dünya təcrübəsindən yanaşdıqda sahibkarlığın inkişaf etdirilməsi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə xüsusi diqqət mərkəzindədir və bu məqsədlərlə geniş həcmli tədbirlər görülür, maliyyə vəsaitləri ayrılır. Məsələn, 2011-ci ildə başladılan Start-up America təşəbbüsü, ABŞ-da yüksək böyümə sürətinə sahib sahibkarların aşkarlanıb önə çıxarılması və inkişaf etdirilməsi üçün 5 əsas sahəyə yönəlmişdir: Sürətli böyümə potensialına sahib yeni sahibkarların maliyyəyə çıxışının asanlaşdırılması; Sahibkarlar üçün təlim və konsaltinq proqramlarının yayılması; Sürətli böyümə potensialına sahib yeni sahibkarlara qarşı bürokratik maneələrin azaldılması; Federal büdcə tərəfindən dəstəklənən araştırma və inkişaf etdirmə tədbirlərinin nəticələrini kommersiyalaşdıraraq yeniliyin sürətləndirilməsi və İri müəssisələr və yeni təşəbbüskarlar arasında əməkdaşlıq qurmaq. Böyük Britaniyada isə sahibkarlığın inkişafı üçün mühüm prioritetlər və dövlət səviyyəsində olan məqsədli proqramlar Business Link kanalı vasitəsi ilə vahid bir platformada toplanır və koordinasiya olunur. Kanadada sahibkarların elektron ticarət texnologiyalarından və tətbiqetmələrindən istifadə etmələrini təmin etmək üçün hazırlanmış Kiçik Biznes Təcrübə Proqramı və müəssisələrin dövlətdən almaları lazım olan icazələr, lisenziyalar, sənədlər və prosedurlar barədə vahid mənbədən məlumat verən BizPal platforması fəaliyyət göstərir. Yaponiyada çevik şərtlər əhatə edən maliyyələşdirmə paketləri, səhmlər və debitor borcları göstərməklə əldə edilən kreditlər, borcların ödəmə müddəti gəlmədən əvvəl nağd pula çevrilməsini təmin edən proqramlar, müəssisələrin qloballaşması üçün təmin edilən dəstək mexanizmləri, layihə əsaslı dəstək yanaşması, regional mənbələrdən istifadənin təşviqi, sistemli təlim xidmətləri göstərən ixtisaslaşdırılmış sahibkarlıq universitetinin olması diqqət çəkir.



**Qlobal şəraitdə sahibkarlıq fəaliyyətinin inkişaf prioritetləri və meyilləri**

Qlobal çağırışlar dərinləşdikcə və qlobal risklər artdıqca sahibkarlığın inkişafına, sahibkarlıq fəaliyyətinin modelləşdirilməsinə və səmərəliliyinin artırılmasına yanaşmalar maksimum təkmilləşdirilməli və yenilənməlidir. Belə ki, bazar iqtisadiyyatının formalaşdığı dövrdə artıq sahibkarlıq anlayışı işgüzar dairələrin, siyasətçilərin, alimlərin və kütvəli informasiya vasitələrinin böyük marağına səbəb olur. Bazar iqtisadiyyatı modelini seçmiş ölkələr üçün sahibkarlığın inkişafı çox vacib hesab edilir. Çünki, hər bir ölkə iqtisadiyyatının böyüməsində və genişlənməsində iqtisadi inkişafın şaxələndirilməsində sahibkarlığın rolu çox böyükdür. Çünki sahibkarlar yeni iş yerləri yaradır, yeni məhsul və xidmətlər yaratmaqla rəqabəti artırar, texnoloji dəyşikliklər sayəsində məhsuldarlığı artırıb və insanların həyat səviyyəsini müsbətə doğru dəyişdirirlər. Sahibkarlar yaşadıqları cəmiyyətdə önəmli missiyaları öz üzərinə götürürlər və ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayırlar. Onlar az inkişaf etmiş ölkələrdə olan işsizlik probleminin həll olunmasında mühüm rol oynayırlar və yeni iş yerləri yaratmaqla, dövlət-özəl sektor əməkdaşlığını dərinləşdirməklə bərabər, ölkədə sosial-iqtisadi problemlərin həllində önəmli funksiyaları yerinə yetirirlər. Nə qədər çox sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatının mühüm sahələrinə investisiyaları cəlb olunarsa, yeni iş yerləri yaradılacaq və məşğulluq səviyyəsi bir o qədər də artacaqdır. Həmçinin onlarının sayının artması sosial rifah halının və həyat səviyyəsinin yüksəlməsinə səbəb olacaqdır. Sahibkarlıq subyektləri ölkə xaricində də, investisiyalar yatırdıqda öz ölkələrini dünya miqyasında tanıdır və ölkə iqtisadiyyatına kapital axımını təmin edirlər.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bundan əlavə, elm və texnologiyaların inkişaf etdirilməsi layihələrinə investisiyalar yatıraraq, onların inkişafına əlavə stimullar verirlər. İstifadə edilməyən potensialları aşkar edərək, onların qeyri-səmərəsiz qalmağının qarşısını alırlar və həmin resursların təsərrüfat-maliyyə dövriyyəsinə cəlb edilməsində ciddi səylər göstərirlər. Sahibkarlıq subyektləri iqtisadi inkişafda mühüm rol oynayırlar və onların iqtisadi inkişafda rolları müxtəlifdir. Məsələn, sahibkarlar rəqabət vasitəsi ilə səmərəliliyi artırırlar: Rəqabətlilik məşğulluq yaratmaq, bazarda məşğulluğun yüksəldilməsi və keyfiyyətli malların istehsalı ilə iqtisadi inkişafa kömək etmək üçün tələb olunur. Bununla yanaşı, rəqabətin artması ilə məhsuldarlığın artırılması bir-birinə təsir edən əlaqə yaradır. Rəqabət səbəbiylə müəssisələr istehlakçının tələbinə dərhal cavab verəcək keyfiyyətli mal istehsal etmək üçün işçi qüvvəsi və məhsuldarlığını artırırlar, məhsuldarlığın artması isə bazarda rəqabətin daha da sürətlənməsinə təsir göstərir. Bu proses istehlakçıya daha keyfiyyətli, ucuz və müxtəlif malların istehsalı ilə fayda təmin edir və iqtisadiyyatı qoruyur. Sahibkarlar, bazarda rəqabət təzyiqini artıraraq, digər firmalara məhsuldarlıq və effektivliyini artırmaq və ya yeniləşdirməyə məcbur edir; Bazar iqtisadiyyatının əsas elementi kimi əldə etdikləri uğurlar, cəmiyyətə sərvət və yeni iş imkanları və istehlakçılara seçim imkanı verir. Sahibkarlar, müştərinin arzularını və ehtiyaclarını müəyyənləşdirir və yeni məhsullar bazara çıxararaq nəyin lazımlı olduğunu, istehlakçıların nələri almağa üstünlük verdiyi kimi məsələlərdə yardım göstərir. Bu proses bizə məhsul-bazar kombinasiyasının inkişafına köməklik edir. Sahibkarların riski öz üzərinə götürməsi və qeyri-müəyyənliklə mübarizə apara bilməsi başlıca makroiqtisadi nəticələrə malikdir. Risklərin idarə edilməsi və qeyri-müəyyənliklərə qarşı dözümlülük qabiliyyəti kiçik və orta müəssisələrin fəaliyyət dövrünü artıran səbəblərdən biri hesab olunur.



Qeyd edək ki, qloballaşma prosesləri dərinləşdikcə, rəqabətin ağır olduğu iqtisadi mühitdə bir çox ölkələr iqtisadi problemlərlə üzləşirlər. Bunun da kökündə məşğulluq problemi var və sahibkarlar yeni müəssisələr yaradaraq məşğulluğun gücləndirilməsi üçün əlavə şərait formalaşdırır və iqtisadi inkişaf proseslərini sürətləndirirlər. Sahibkarlığın inkişafı üçün heç də bütün hallarda çox iri kapital tələb edilmədiyi üçün, kiçik kapital ilə də biznesə başlamaq mümkündür. Kiçik sahibkarlığa heç bir maneəçilik olmadıqda, formalaşmış münbit şəraitdə sahibkarlığa meyil artır, yəni biznes qurmaq istəyinin artamasına səbəb olur. Bunun nəticəsində də müxtəlif fəaliyyət istiqamətləri üzrə sahibkarlarda artıq öz işini qurmaq istəyi yaranır ki, sonda dövlətdən iş tələbetmə istəyi azalır. Bu vəziyyət, bir tərəfdən dövlətin əsas işəgötürən tərəf olmasından çıxmasına şərait yaradır, digər tərəfdən, ümumi məşğulluq səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. İnsanların ehtiyaclarını ödəmək üçün istehsal faktorlarından olan əmək, sərmayə və təbii qaynaqları bir araya gətirərək, mal və xidmət istehsal etməklə, bu məhsulların hazırlanmasında çəkilən əməyə görə də pay şəkilində əmək haqqının formalaşması həm də insanların gəlirlərini artırır.

Sahibkarlıq fəaliyyəti nəticəsində yaranan yeni bazarlar, sənaye fəaliyyət istiqamətləri və iş sahələri məşğulluq səviyyəsini artırmaqla bərabər, işçilərin əməyindən istifadə edərək məhsuladarlığı artırmaqla, həm o bölgənin və ölkənin iqtisadiyyatının inkişafının sürətləndirilməsinə əlavə stimullar verir. Yeni müəssisələr böyük bir coğrafi ərazini və əhali yaşayış məntəqələrini əhatə etməklə, ölkənin milli və iqtisadi maraqları üçün sərvət və gəlirlərin ədalətli bölüşdürülməsini stimullaşdırır və bununla da cəmiyyətin böyük hissələrinə fayda gətirir. Yeni məhsullara və xidmətlərin yaradılmasına öz töhfəsini verir və iqtisadiyyatda yeni bazarları inkişaf etdirir. Sahibkarların gətirdiyi yenilikçi və yaradıcı fikirlər ölkənin iqtisadiyyatında yeni sektorların yaranmasına gətirib çıxarır və iqtisadi artımın mühərriki olur. Sahibkarlıq üçün bu gün yalnız yeni firmalar yaratmaq deyil, daha da vacib olacaq yeni sahələr yaratmalıdır. Hal hazırda inkişaf edən sənaye sahələrindən bəziləri fərdi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

kompüter, biotexnologiya, simsiz televiziya və mobil telefonları istehsalı ilə məşğul olan sahələrdir. Bu sənaye sahələrində fəaliyyət göstərən subyektlər sürətlə inkişaf edir və iqtisadiyyatın əvəzsiz yeni aktyorları olur. Sahibkarlıq xüsusiyyətlərinə sahib fərdlər təkcə öz bzines fəaliyyətlərinin uğurunda deyil eyni zamanda yerli, regional və milli inkişafda da təsirli bir rol oynayır. Sahibkarlıq, inkişafda geri qalmış bölgələrdə ictimai və iqtisadi uyğunlaşmanın gücləndirilməsinə, iqtisadi fəaliyyətlərin canlanmasına və iş yerlərinin yaradılmasına ya da işsiz və ya əmək qabiliyyəti mədud insanların iş həyatıyla inteqrasiyasına da öz töhfəsini verir. Sahibkarlıq üçün böyük sərmayəyə ehtiyac duymaması, investisiya və istehsal fəaliyyətinin müəyyən mərkəzlərdə sıxlaşmasını önləyərək, bu fəaliyyətin yerli miqyasda da həyata keçirilməsinə imkan yaratmaqdadır. Bu da yerli miqyasda məşğulluq imkanlarını artıracağı üçün iş tapmaq məqsədi ilə mərkəzi şəhərlərə köçün (urbanizasiya) qarşısını alacaqdır. Sahibkarlığın məşğulluğu artırmaq rolu və köçü önləyici funksiyaya sahib olması, xüsusilə, işsizlikdən və köçdən qaynaqlanan şəhərləşmə problemləri yaşayan ölkələrdə sahibkarlığın təşviq edilməsinin vacibliyini ortaya çıxarır. Yeni firmaların yaranması regionda yerli xidmət təminatını, xüsusilə pərakəndəçilik fəaliyyətlərini artırır. Bu da, bölgəni daha cəlbedici edir və yeni firmaların bazarlara daxil olmasını təşviq edir. Yeni şirkətlərin ortaya çıxması insanların motivasiyasını artırır. Aralarından birinin sahibkarlıq fəaliyyətinə girişməsi cəmiyyətin digər fərdlərini  də onu təqlid etməyə, onun yolundan getməsinə səbəb olacaq. Ölkə iqtisadiyyatının inkişafının mühüm göstəricilərindən biri də iqtisadi azadlıq  göstəricisidir. Müasir anlamada iqtisadi azadlıq dedikdə, xüsusi mülkiyyətin toxunulmazlığna əsaslanaraq istehsal, mübadilə, yığım, yatırım etmək, qazanılandan sərbəst istifadə etmək, ölkə daxilində və xaricində vətəndaşlara iqtisadi münasibətlər yaratmaq, müstəqil şəkildə qiymətləri müəyyən etmək azadlığı başa düşülür. Dünya təcrübəsi göstərir ki, dövlətin iqtisadiyyata müdaxiləsi olan ölkələr beynəlxalq miyasda müvəffəqiyyətlər əldə etmir. Dövlət müəssisələrinin ÜDM-də və dövlət istehlakının ÜDM-də payının azaldılması, özəlləşdirilmə aparılması iqtisadi artımı sürətləndirir. Dövlət bazar subyeklərinin iqtisadi azadlığına məhdudiyyət yarada bilər.



**Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişaf proseslərinin təhlili və tənzimlənməsi**

Son onilliklərdə qlobal təhdidlər çərçivəsində Azərbaycanda sahibkarlığın inkişafına, xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsinə dair ardıcıl tədbirlər görülməkdədir və məqsədli proqramlar reallaşdırılmış, strtaeji yanaşmalar formalaşdırılmışdır. Ölkə Prezidenitinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə bunlarla bağlı strateji hədəflər verilmişdir [3]. digər tərəfdən, strateji yol xəritəsinin hədəflərinə çatmaq üçün keçən dövr ərzində ölkə iqtisadiyyatının müxtəlif sahələrində, sənaye və kənd təsərrüfatı sektoru sahələrində, kiçik və orta biznes sferasında, həmçinin bir sıra yeni inkişaf edən sahələrdə, o cümlədən turizm sektorunda, bilik iqtisadiyyatının formalaşmasında, rəqəmsal inkişafın sürətləndirilməsində, həmçinin biznes mühitinin yaxşılaşdırılmasında dövlət tərəfindən səmərəli tədbirlər görülmüş, maliyyə təminatı gücləndirilmiş və qanunvericilik bazası təkmilləşdirilmişdir. Bu amillər baxımından, ölkə iqtisadiyyatının obyektiv reallıqlar əsasında inkişaf etdirilməsi və perspektivdə daha səmərəli ola biləcək iqtisadiyyat sahələrinin imkanlarından istifadənin modelləşdirilməsi, qiymətləndirilməsi vacibdir [4]. Eyni zamanda, ölkədə institusional və struktur islahatları dərinləşdirilmiş, yeni, eyni zamanda, çevik dövlət orqanları yaradılmış, biznesə müdaxilələr azalmış, biznes proseslərinin və fəaliyyətinin şəffaflığı artırılmış, vergi və gömrük islahatları aparılmış, biznes subyektlərinin daha səmərəli fəaliyyətinə mane olan halların aradan qaldırılması tədbirləri intensivləşdirilmişdir. Xüsusilə, qeyri-neft sənaye

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sektoru sahələrində biznes mühitinin səmərəliliyinin yüksəldilməsi strateji səviyyəyə yüksəldilmişdir. Artıq bir çox iqtisadiyyat sahələrində biznes mühiti kifayət qədər şəffaflaşmış, dövlət strukturlarında "bir pəncərə" sistemi tətbiq edilmiş, biznesin təşkili və aparılması üçün məcburi prosedurların sayı azaldılmış, kredit resurslarına əlçatanlığın artırılması tədbirləri görülmüşdür. Bütün bunlarla bərabər, strateji yol xəritələri çərçivəsində nəzərdə tutulmuş strateji hədəflərə çatmaq üçün biznes mühitinin müasir dövrün çağırışlarına uyğun fundamental səviyyədə araşdırılması və təkmilləşdirilməsi tələb olunur [5]. Bunlarla bərabər, ölkə Prezidentinin 28 dekabr 2017-ci il tarixli "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Fərmanı çərçivəsində bu istiqamətdə sistemli tədbirlərin görülməsi təmin olunmuşdur [6].

Azərbaycanda son 15 il ərzində sahibkarlıq fəaliyyətinə olan dövlət dəstəyi mexanizmlərinin və bununla bağlı aparılan siyasətin bir sıra məqamlarını qeyd etmək istərdik. Belə ki, ölkəmizdə sahibkarlığın inkişafına strateji yanaşmalardan irəli gələn məsələlərin kompleks və sistemli baxılması və reallaşdırılması istiqamətində son illərdə də davamlı tədbirlər görülməkdədir [7]. Sahibkarlıq fəaliyyətinin daha da səmərəli təşkili, xüsusilə regionlarda sahibkarlığın inkişafına imkan verən biznes mühtinin yaxşılaşdırılması üçün zəruri işlərin görülməsi ardıcıl xarakter daşımaqdadır. Bu qanunla yalnız vergi yoxlamaları, maliyyə bazarları sahəsində aparılan yoxlamalar, gömrük auditi və s. bu kimi spesifik, həmçinin dövlət əhəmiyyətli, milli iqtisadi təhlükəsizlik baxımından vacib olan məsələlər üzrə yoxlamalar saxlanılmaqla digər bütün növ yoxlamalar dayandırılmışdır. Digər tərəfdən, ölkə Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanına əsasən əvvəllər İqtisadiyyat Nazirliyinin tərkibində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu ləğv olunmuş əvəzində isə Sahibkarlığın İnkişaf Fondu publik hüquqi şəxsi yaradılmışdır. Bu Fərmanın reallaşdırılması ilə bağlı prioritet tədbirlər sırasında qeyri-neft sektorunda müasir və məhsuldar texnologiyalara əsaslan yeni istehsal emal və infrastruktur müəssisələrinin yaradılması, həmçinin özəl subyektlərin maliyyə resurslarına əlçatanlığının təmin edilməsi məsələlərinə daha çox önəm verilmişdir [8].



Görülmüş tədbirlər, dövlət dəstəyi mexanizmləri və ölkədə sahibkarlığın inkişafı məqsədilə yaradılan münbit şərait sahibkarlıq fəaliyyətinin inkişafında önəmli rol oynamışdır və son illərdə sahibkarlıq fəaliyyətinin daha dayanıqlı olması və səmərəlilik nümayiş etdirməsi üçün ciddi zəmin yaradılmışdır. 2015-ci ilin yanvar ayının 1-nə olan məlumata görə ölkəmiz üzrə qeydiyyatda olan statistik fəaliyyət vahidlərinin sayı 94,5 min olmuşdursa, bu göstərici 2021-ci ildə 64,4 % artaraq 155,4 min təşkil etmişdir. Daha çox fəaliyyət subyektləri ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində (44 minə yaxın), kənd təsərrüfatı sektorunda (11,5 min), tikinti sektorunda (14,7 min) sahələrdə qeydə alınmışdır. Bundan əlavə, qeydiyyatda olan statistik vahidlərdən kiçik müəssisələrin sayı 2021-ci ildə 134,8 min vahidə yaxın olmuşdur, halbuki bu göstərici 2015-ci ildə 75,1 min, 2020-ci ildə isə 126,2 min təşkil etmişdir. Əgər mülkiyyət növləri üzrə bölgüdən yanaşsaq 2021-ci il yanvarın 1-nə olan məlumata görə 127,6 min vahid iqtisadi-təsərrüfat subyekti özəl sektora aid olmuşdur. Qeydiyyatda olan fərdi sahibkarlara gəlincə isə 2015-ci ildə bu qəbildən olan sahibkarların sayı 519,9 min olmuşdursa, 2021-ci ildə 1062,5 min vahid təşkil etmişdir [9]. Bu onu göstərir ki, sahibkarlığın inkişafı üçün formalaşdırılan əlverişli mühit, yeni sahibkarlıq vahidlərinin yaradılmasını stimullaşdırır və ümimilikdə ölkə üzrə sahibkarlığın inkişafını intensivləşdirir. Eyni zamanda, əlverişli investisiya mühitinin yaradılması, maliyyə-kredit mexanizmlərinə əlçatanlığın təmin olunması, xüsusilə regionlarda kənd təsərrüfatı fəaliyyəti istiqamətləri üzrə və ümumilikdə aqrar sahədə emal müəssisələrinin yaradılması diqqət çəkir. Dövlət tərəfindən analoji sahibkarlıq fəaliyyəti subyektlərinə müxtəlif dəstək mexanizmlərinin tətbiq olunması, ucuz qiymətlərlə kənd təsərrüfatı gübrələrinin verilməsi, güzəştli şərtlərlə texnika və nəqliyyat

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

vasitələrinin ayrılması, aqrotexniki məsləhət mərkəzləri tərəfindən müxtəlif xidmətlərin göstərilməsi, ümumilikdə hər il dövlət büdcəsindən kənd təsərrüfatının inkişafına məqsədli maliyyə resurslarının ayrılması, bu istiqamətlərdə fəaliyyət üzrə əldə olunan mənfəətdən vergilərin tutulmaması və s. bu kimi amillər hesabına bir tərəfdən iqtisadi fəallığın artması təmin olunur, digər tərəfdən müxtəlif kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı təşkil edilir, məşğulluq məsələləri gücləndirilir, regionlarda yaşayan əhalinin gəlirlərinin artması üçün yeni mənbələr formalaşdırılır. Bundan əlavə, əhalinin gündəlik tələbat malları ilə fasiləsiz rejimdə təmin edilməsində kiçik və orta biznes subyektlərinin rolu ildən-ilə artmaqdadır. 2021-ci il yanvarın birinə olan məlumatlara görə, bu qəbildən olan sahibkarlığın sayı 1,1 mln. vahid təşkil etmişdir, müqayisə üçün deyək ki, 2020-ci ilin əvvəlinə bu göstərici 12,7% az olmuşdur. Kiçik və orta biznes subyektləri tərəfindən 2020-ci ildə ölkə iqtisadiyyatının ümumi həcmində 10,9 mlrd. manatlıq əlavə dəyər yaradılmışdır və bu sahədə çalışanların sayı 349 min nəfərə yaxın olmuşdur. Orta aylıq əmək haqqı isə 2019-cu ildə 531 manat olmuşdursa, 2020-ci ildə COVİD - 19 pandemiyasının mənfi təsirinin artdığı bir şəraitdə azalmamış, əksinə artaraq 612,3 manat səviyyəsinə qədər yüksəlmişdir. Kiçik və orta sahibkarlıq subyektləri tərəfindən 2021-ci ildə əsas kapitala yönəldilən investisiyaların həcmi 2,7 mlrd. manata yaxın olmuşdur. Ümumilikdə isə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2019-cu ildə 271,3 min olmuşdursa, 2020-ci ildə 16,6 % artaraq 316,4 minə yaxın artmışdır [10]. Fərdi sahibkarlıq subyektlərinin fəaliyyətini də qeyd etmək maraqlı olar, belə ki, 2015-ci ildə bu qəbildən olan sahibkarlıq subyektlərinin gəlirləri kənd təsərrüfatı sahələrində bitkiçilik sektoru üzrə 3,8 mln. manat və heyvandarlıq sahəsində 1,8 mln manata yaxın olmuşdursa, 2020-ci ildə həmin göstəricilər müvafiq olaraq 5,6 və 1,9 mln. manat səviyyəsində qeydə alınmışdır. Fərdi sahibkarlıq subyektlərinin satışdan əldə etdikləri gəlir isə 2020-ci ildə 29,2 mln. manat olmuşdur və müqayisə üçün deyək ki, bu rəqəm 2015-ci ildə 19,7 mln. manata yaxın təşkil etmişdir. Bu təsərrüfatlarda əldə olunan ümumi kənd təsərrüfatı məhsullarının dəyəri isə 2014-cü ildə 24,8 mln. manat səviyyəsində idisə, 2020-ci ildə 37,3 mln manat olmuşdur, yaxud artım 50 % qeydə alınmışdır [11].



Sahibkarlıq subyektlərinin fəal şəkildə xarici bazarlara çıxması, xarici ticarət fəaliyyəti ilə məşğul olmaları üçün dəstək mexanizmlərinin göstərilməsi və sahibkarların işgüzar əlaqələrinin inkişaf etdirilməsi, genişləndirilməsi tədbirlərini də təqdirəlayiq saymaq mümkündür. Belə ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu tərəfindən müxtəlif biznes forumların, sərgilər və seminarların, konfransların keçirilməsi sayəsində biznes mühitinin və iqtisadi potensialın təbliği, iqtisadi fəallığın artırılması, xarici işgüzar əlaqələrin yaradılması və inkişaf etdirilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir. Ölkəmizdə hər il aprel ayının 25-i sahibkarlar günü kimi qeyd olunur. Özəl sektor, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar olaraq biznes və investisiya mühiti daha da yaxşılaşdırılır, bu kateqoriyadan olan subyektlərin qeydiyyat prosedurları sadələşdirilir, əksər istiqamətlər üzrə elektron xidmətlər göstərilir, “bir pəncərə” prinsipi tətbiq olunur, özəl sektor subyektləri ilə hökümət strukturları və icra orqanları arasında əməkdaşlıq gücləndirilir. Eyni zamanda, ölkə Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı ilə “Kredit Zəmanət Fondu”nun yaradılması ilə sahibkarların maliyyə resurslarına əlçatanlığı mexanizminin yaradılması təqdirəlayiq dövlət tənzimlənməsi mexanizmlərindən biri kimi baxılmalıdır [12]. Eyni zamanda, ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” iqtisadiyyatın strukturunun qlobal çağırışlara adekvat olaraq yenilənməsi, yüksək və “ağıllı”, həm də yaşıl

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

texnologiyalardan istifadə olunması, qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi prioritetləri yer almışdır [13].

Ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən məsələlərdən biri də işğaldan azad olunmuş ərazilərdən sahibkarlıq fəaliyyətinin yüksək səviyyədə inkişaf etdirilməsi hesabına, bu regionun təbii və iqtisadi resurslarından səmərəli istifadə olunmasına əsaslı zəmin yaratmaqdır. Artıq bu ərazilərdə geniş həcmli bərpa və quruculuq işləri görülür, infrastruktur, istehsal, o cümlədən sənaye infrastrukturu formalaşdırılır, iri nəqliyyat layihələri həyata keçirilir. Region təbii ehtiyatlar baxımından, o cümlədən emal sənayesinin inkişaf etdirilməsi üçün resurslar nöqteyi-nəzərindən kifayət qədər cəlbedicidir və çoxşaxəli sahibkarlıq fəaliyyətinin təşkilinə imkan verir. Digər tərəfdən, ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı dərc olunmuşdur və bu Fərmanla regionda 2 yeni iqtisadi rayon – Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonları yaradılmışdır [14]. Qarabağ iqtisadi rayonu ərazisində sahibkarlıq fəaliyyətinin inkişafı üçün geniş perspektivlər vardır. Hələ keçmiş sovet Azərbaycanı dövründə burada çox güclü kənd təsərrüfatı potensialı var idi və ilk növbədə, mühüm ərzaq məhsulu olan buğda istehsalı üçün münbit şərait mövcuddur. Bundan əlavə, aqrar-emal sənayesinin inkişafı və çoxlu sayda aqrar məhsulların istehsalı mümkündür. Artıq Ağdamda yaradılmasına başlanılan sənaye parkının bu istiqamətdə böyük töhfələrinin olacağını qeyd etmək olar. Regionda aqrar-emal müəssisələrinin şəbəkəsinin yaradılması hesabına müxtəlif aqrar məhsulların istehsalını təmin etməklə bərabər, həm də həmin məhsulların xammalının yetişdirilməsi hesabına doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın məşğulluq problemlərinin həllində yeni imkanlar formalaşdırılacaqdır. Bunlarla yanaşı Qarabağ İqtisadi rayonunda tikinti materialları sənayesinin, üzümçülüyün və pambıqçılığın, ipəkçiliyin, heyvandarlığın inkişaf etdirilməsi istiqamətlərində bir tərəfdən ənənəvi təcrübə vardır, digər tərəfdən isə müasir yüksək texnologiyalar hesabına daha məhsuldar fermer təsərrüfatlarının, aqrar-emal müəssisələrinin və digər sahibkarlıq fəaliyyəti subyektlərinin yaradılması imkanları ortaya çıxmışdır. Eyni zamanda, turizm sektorunda sahibkarlığın inkişaf etdirilməsi potensialı ölkə və xarici mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir və biz də hesab edirik ki, regionda bütün il boyu ərzində turizm xidmətlərinin göstərilməsi amili nəzərə alınmaqla, innovativ turizm sahibkarlığının inkişafı mümkündür. Analoji imkanlar və perspektivlər Şərqi Zəngəzur iqtisadi rayonu üzrə də kifayət qədər xarakterikdir və bu iqtisadi rayonda artıq sahibkarlığın inkişafına imkan verən infrastruktur, o cümlədən istehsal və sənaye infrastrukturunun yaradılmasına başlanılmışdır. Cəbrayıl rayonunda təməli qoyulan "Araz Vadisi İqtisadi Zonası"nda xarici investisiyaların cəlb edilməsi və sahibkarlığın müxtəlif formalarınıın inkişaf etdirilməsi istiqamətində yaradılması üçün dövlət tərəfindən davamlı tədbirlər görülməkdədir. Ölkə Prezidentinin 2021-ci il 10 dekbar tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı ilə bu ərazilərdə bərpa və quruculuq işlərinin daha intensiv şəkildə təmin olunması istiqamətində mühüm tapşırıqlar verilmiş və tədbirlərin görülməsi nəzərdə tutulmuşdur [15]. Digər tərəfdən işğaldan azad olunmuş ərazilərin inkişafında yerli və beynəlxalq təcrübədən daha geniş istifadə olunmasında sahibkarlıq subyektlərinin üzərinə önəmli vəzifələr düşür [16]. Bu ərazilərin bərpa olunması və dirçəldilməsi strategiyasının əsasında ciddi əhəmiyyət kəsb edən subyektlər sırasında sahibkarlıq və biznes subyektləri xüsusilə diqqət mərkəzindədirlər və buna görə də dövlət tərəfindən onların iqtisadi fəallığının artırılması tədbirlərinin stimullaşdırılmasına sistemli yanaşma ortaya qoymuşdur [17]. Hesab edirik ki, bütün bunlar Azərbaycanda sahibkarlıq fəaliyyətinin yeni inkişaf potensialını üzə çıxaracaq və ölkə iqtisadiyyatının mövcud inkişaf modelinin maksimum təkmilləşdirilməsində önəmli rol oynayacaqdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

Beləliklə, yaxın perspektivdə ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişaf drayverləri və prioritetləri sırasında aşağıda qeyd olunan amillər və xüsusiyyətlər ön plana çıxacaqdır:

- sahibkarlıq fəaliyyətinin sürətləndirilməsində prioritet vəzifələr sırasında ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektoru sahələrinin daha intensiv şəkildə inkişaf etdirilməsi, ilk növbədə işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişaf proseslərinin yeni mərhələyə qaldırılması və yüksək texnologiyalar əsasında sürətləndirilməsi kimi önəmli vəzifələr daha çox diqqət çəkirlər;
- bunlarla bərabər, işğaldan azad olunmuş ərazilərin tezliklə bərpa edilməsi və məcburi köçkünlərimizin öz doğma yurdlarına qaytarılması prosesləri artıq intensiv xarakter almaqdadır. Eyni zamanda, strateji vəzifələr müəyyənləşdirilmişdir və hesab edirik ki, həmin proseslərdə sahibkarlqı fəaliyyətinin optimal olaraq təşkil olunması, onların fəaliyyəti ilə bağlı prioritetlərin müəyyənləşdirilməsi vacibdir;
- işğaldan azad olmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə və stimullaşdırılmasına fərqli yanaşmalar təmin olunmalı, özəl investisiyaların cəlbi xüsusi olaraq stimullaşdırılmalıdır;
- ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyətinin genişləndirmək məqsədilə prioritet layihələrin hazırlanması, elektron reyestrə salınması ilə şəffalığın gücləndirilməsi və məqsədli qrant müsahibələrinin keçirilməsi daha çox səmərə verə bilər.



**Ədəbiyyat**

1. Малова, Е.А., Царегородцев, Е.И. Необходимость развития малого и среднего бизнеса //Вестник Марийского государственного университета. Серия «Сельскохозяйственные науки. Экономические науки». – 2016. №5. – с.91-95.
2. Мальцева, Е.С. Проблемы и перспективы развития малого бизнеса в России // Бизнес и дизайн ревю. 2016. Т. 1. № 4 (4). – с. 4-8.
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
4. Şəkərəliyev, A.Ş., Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: “Turxan” NPB, 2016, 536 s.
5. Azərbaycanda sahibkarlığın inkişaf tarixi. 18.05.2020/ https://www.economy.gov.az/article/azda-sahib-inkishaf-tar/21410.
6. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezdentinin Fərmanı, Bakı şəhəri, 28 dekabr 2017-ci il.
7. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, – 376 s.
8. Sahibkarlığın güzəştli maliyyələşmə mexanizmi. https://www.economy.gov.az/article/guzeshtli-maliyeleshme-mexanizmi/21392.
9. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, –752 s.
10. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Bakı: – 2021, – 221 s.
11. Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Statistik məcmuə, Bakı, 2021. –304 s.
12. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

13. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
14. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
15. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 10 dekabr 2021-ci il
16. İşğaldan azad edilmiş ərazilərin inkişafında yerli və beynəlxalq təcrübədən istifadə zəruridir. 18 Dekabr 2020. https://vergiler.az/news/economy/11182.html.
17. İşğaldan azad olunan regionların bərpa strategiyası. 16.11.2020. https://www.moderator.az/news/352060.html.

***Вугар Гахраман оглу Тагиев***

***Направления развития и приоритеты предпринимательской деятельности в современных условиях***

***Резюме***

*Цель исследования – состоит из определения направлений развития и приоритетов предпринимательской деятельности в современных условиях. В настоящее время проводятся масштабные восстановительные работы в Карабахском и Восточно-Зангезурском экономических районах. Обоснована важность усиления государственной поддержки субъектов предпринимательства в региональном контексте. Рассмотрены задачи и приоритеты субъектов предпринимательства в развитии ненефтяного сектора. Подготовлены рекомендации и предложения по расширению предпринимательской деятельности на освобождённых от оккупации территориях в ближайшей перспективе. Методология исследования – использованы методы анализа и синтеза, сравнения, кроме того, рассмотрены теоретико-методологические подходы, научные труды разных учёных и исследователей по проблемам интенсификации развития и повышения продуктивности предпринимательской деятельности. Практическая значимость исследования – результаты и научные выводы, а так же важнейшие подходы, могут быть применены в разработке и реализации новых целевых программ и мероприятий по совершенствованию предпринимательской деятельности в Азербайджане. Результаты исследования – подготовлены эффективные механизмы и инструментарий по ускорению развития предпринимательской деятельности в Азербайджане с учётом освобождённых от оккупации территорий. Оригинальность и научная новизна исследования – в исследовании, в основном, даны материалы с точки зрения авторского подхода и поэтому преимущественно обеспечена оригинальность статьи. Основная научная новизна рассматривается как формирование приоритетного подхода развития и совершенствования существующих механизмов предпринимательской деятельности, с учётом освобождённых от оккупации территорий. Обосновано ускорение развития более действенных и продуктивных механизмов по интенсификации предпринимательской деятельности в Азербайджане в контексте глобальных вызовов. Подготовлены рекомендации и предложения по рассматриваемым проблемам.*

***Ключевые слова:*** *предпринимательская деятельность, освобождённые от оккупации территории, Карабахский экономический район, Восточно-Зангезурский экономический район, направления развития предпринимательской деятельности, перспективы развития предпринимательства, проблемы развития предпринимательства.*



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Vugar Gahraman Taghiyev***

***Development Directions and Priorities of Entrepreneurship Activities in the Liberated Territories***

***Summary***

*Purpose of the research – The article examines the development directions and priorities of entrepreneurial activity in the liberated territories. At present, large-scale construction work is being carried out in the Karabakh and East Zangazur economic regions, and the role of entrepreneurs in these processes is important. The article emphasizes the importance of state support for entrepreneurship in terms of regional development. The tasks and priorities of business entities in the development of the non-oil sector are considered. Recommendations and proposals are made to expand entrepreneurial activity in the liberated territories in the short term. Research methodology – methods of analysis, synthesis and comparison are used, in addition, theoretical and methodological approaches, scientific works of various scientists and researchers on the problems of intensifying the development and increasing the productivity of entrepreneurial activity are considered. The practical importance of a research - the results and scientific conclusions, as well as the most important approaches, can be applied in the development and implementation of new targeted programs and measures to improve entrepreneurial activity in Azerbaijan. The results of the research - effective mechanisms and tools are prepared to accelerate the development of entrepreneurial activity in Azerbaijan, taking into account territories liberated from occupation. The originality and scientific novelty of the study - in the study, mainly, materials are given from the point of view of the author's approach and therefore the originality of the article is mainly ensured. The main scientific novelty is considered as the formation of a priority approach to the development and improvement of existing mechanisms of entrepreneurial activity, taking into account territories liberated from occupation. It is justified to accelerate the development of more efficient and productive mechanisms to intensify entrepreneurial activity in Azerbaijan in the context of global challenges. Recommendations and proposals on the issues under consideration are given in the end.*

***Key words:*** *entrepreneurial activity, liberated territories, Karabakh economic region, East Zangazur economic region, development directions of entrepreneurial activity, perspectives of entrepreneurship development, problems of entrepreneurship development.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 15.12.2021.***
***Çapa qəbul olunub: 23.12.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*